Təhsil millətin gələcəyidir! Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

1 dekabr 2023-cü il №46 (9054) www.muallim.edu.az muallim@edu.gov.az

EFFEKTİV KOMMUNİKASİYA
Media subyektləri ilə Elm və Təhsil Nazirliyinin qurumları arasında şəbəkələşmə artırılır

# QARABAĞ UNİVERSİTETİ YARADILIR

## Böyük Qayıdışa böyük töhfə

- Qarabağ Universitetində ilk il üçün 800-1000 tələbənin təhsil alması planlaşdırılır
- SABAH qruplarında təhsil alan istedadlı gənclərin də təhsili nəzərdə tutulur
- Mübadilə proqramları və ya ikili diplom proqramları da işlək olacaq
- Universitetdə əsasən müəllimlik ixtisasına geniş yer ayrılacaq
- Azərbaycanda və dünyada yaşayan tanınmış alimlər Qarabağ Universitetində işləmək üçün artıq müraciət edirlər
- İlk mərhələdə 4 fakültə - beynəlxalq münasibətlər, regionşünaslıq, tarix, kommunikasiya və rəqəmsal media fakültələri fəaliyyət göstərəcək



**Azərbaycan müasir tarixinin ən möhtəşəm günlərini yaşayır. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi iradəsi, Rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində düşmən əsarətindən azadlığına qovuşan Qarabağımızda yeni həyat başlayıb. Görülən işlər və nəzərdə tutulan, əzmlə, inamla həyata keçirilən layihələr öz miqyası və əhəmiyyətinə görə həyatımıza xoş anlar qatır, qalib ölkənin layiq vətəndaşları kimi hər birimizdə gələcəklə bağlı böyük ümidlər doğurur.**

Elə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Xankəndidə Qarabağ Universitetinin yaradılması da çağdaş dövrümüzdə ən əlamətdar tarixi hadisə kimi qiymətləndirilə bilər. Sərəncamın 2023-cü il 28 noyabr tarixində imzalanması özündə dərin məntiqi, rəmzi məna ehtiva edir. Tarixi paralellik bu dəfə də dövlət siyasətinin möhkəm təməllər üzərində qurulduğuna və inkişaf etməsinə əyani nümunədir. Məhz 50 il bundan əvvəl, 1973-cü il noyabrın 28-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Xankəndi şəhərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı yaradılıb. Xankəndi şəhərində müstəqil ali təhsil müəssisəsinin yaradılmasında məqsəd Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində yaşayan vətəndaşlarımızın ali təhsil alması, ümumtəhsil məktəblərimizin müəllimlərlə təmin edilməsi idi. Bu qərar rayonlarımızda ziyalı potensialının gücləndirilməsinə, əhalinin maarifləndirilməsinə və erməni separatizminin qarşısının alınmasına xidmət edirdi.

Xankəndidə Qarabağ Universitetinin yaradılması "Heydər Əliyev İli"nə mühüm töhfədir və bu qərar əsası Ulu Öndər tərəfindən qoyulmuş təhsil konsepsiyasının müasir reallıqlar şəraitində inamla davam etdirilməsidir.

Sərəncamda qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Sərəncamda qeyd olunur ki, Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, lakin ərazilərimizin işğalı dövründə fəaliyyətini dayandırıb.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb. Sərəncamla regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılır.

Əslən Qarabağdan olan və ölkəmizin, eləcə də dünyanın ən nüfuzlu universitetlərində çalışan, təhsil alan vətəndaşlarımız bu sərəncamı böyük ruh yüksəkliyi və sevinclə qarşılayıblar. "Azərbaycan müəllimi"nə öz təəssüratlarını bölüşüblər.

**Oruc MUSTAFAYEV**

### "Qarabağ Universitetinin riyaziyyat fakültəsinin yaradılmasına öz töhfəmi verməyə hazıram"



ABŞ-ın Minnessota Universitetinin riyaziyyat professoru Anar Əhmədov bu qərarın imzalanmasını yüksək qiymətləndirir və gələcəkdə Qarabağ Universitetinin fəaliyyətinə öz töhfələrini verməyə hazır olduğunu bildirir: "Bu, çox gözəl bir xəbərdir. Ümid edirəm ki, tezliklə cənab Prezidentin bu sərəncamı uğurla həyata keçiriləcək. Mən də Qarabağ Universitetinin riyaziyyat fakültəsinin yaradılmasına və tanınmasına bacardığım köməyi göstərməyə hər zaman hazıram. Bir daha qeyd edim ki, bu, mənim üçün çox sevindirici xəbər oldu və inşallah millətimizin adına, Azərbaycan elminin, təhsilinin inkişafı üçün çox uğurlu olar. Arzum budur ki, Qarabağ Universiteti ən öndə gedən ali təhsil ocaqlarından olsun.

### "Qarabağ Universiteti dünyanın ən müasir ali təhsil müəssisəsi olacaq"



Xəqani Eynullazadə, ABŞ-ın Viskonsin Medisson Universitetinin doktorantı: "Əlbəttə, bu qərarın çox gözəl təşəbbüs olduğunu düşünürəm. Qarabağ Universiteti regionun ən güclü təhsil ocaqlarından birinə çevriləcək. Bunun isə ölkəmiz üçün çox böyük faydaları olacağını düşünürəm. Sonda əminik ki, qədim yurd yerimiz olan Xankəndidə Qarabağ Universitetinin yaradılması bir tərəfdən tarixi ədalətin bərpası, digər tərəfdən həmin bölgədən olan gənclərin bu universitetdə təhsil alaraq yüksəkixtisaslı kadrlara çevrilməsini stimullaşdıracaq. Qarabağ Universiteti dünyanın ən müasir ali təhsil müəssisəsi olacaq və Azərbaycanın inkişafına böyük töhfələr verəcək".

SAF 2023 - məktəbli startapçılar hazırdırlar
Səh.3

Robert Cenkins "Yeni çağırışlar"da
Səh.4

Laçına Əməkdar müəllim kimi dönəcək
Səh.5

"Universitetlər yaradıcı mütəxəssislər hazırlamalıdır"
Səh.6

# NAXÇIVANDA YÜKSƏK KEYFİYYƏTLİ TƏHSİL ƏNƏNƏLƏRİ MÖVCUDDUR

## Elm və təhsil naziri Naxçıvana səfəri çərçivəsində vətəndaşların müraciətlərini dinləyib, məktəb açılışında iştirak edib, bir sıra təhsil müəssisələrində olub

### Həssas yanaşma, vətəndaş məmnunluğu

**Elm və təhsil naziri Emin Əmrullayev noyabrın 24-də Naxçıvan şəhərində vətəndaşları qəbul edib. Qəbulda Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur sakinləri iştirak ediblər.**

Qəbulda vətəndaşlar əsasən işə qəbul, ümumi təhsil, tələbələrin köçürülməsi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.








### Məktəb açılışında

**Elə həmin gün Ordubad rayonunun Azadkənd tam orta məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib.**

Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında ölkə Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.

Məlumat verilib ki, 2000-ci ildə tikilən 288 yerlik məktəb binası bu il əsaslı təmir edilib. Üçmərtəbəli təhsil ocağında 16 sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, şahmat sinfi, STEAM, kompüter və müəllimlər otaqları, hərbi kabinet, kitabxana, bufet və idman zalı yerləşir. Məktəbdə 23 kompüter və 4 elektron lövhə quraşdırılıb, internetə çıxış təmin edilib. Məktəbin həyətində açıq idman qurğuları və qazanxana tikilib, yaşıllıq sahəsi yaradılıb.

Hazırda Azadkənd məktəbində 155 şagird təhsilini davam etdirir. Onların təlim-tərbiyəsi ilə 22 müəllim məşğul olur.

Məktəbin müəllimləri ilə görüş zamanı Fuad Nəcəfli Naxçıvanda tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə yeni layihələrin icra olunacağını bildirib.

Elm və təhsil naziri Emin Əmrullayev kollektivi təbrik edərək Naxçıvanda yüksək keyfiyyətli təhsil ənənələrinin olduğunu bildirib. Qeyd edib ki, bu cür müasir məktəb binalarının istifadəyə verilməsi həmin ənənələrin innovativ yeniliklər əsasında daha da təkmilləşdirilməsinə imkan verəcək.

Sonda məktəbin kollektivi ilə xatirə fotosu çəkdirilib.

Həmin gün Ordubad şəhərində internat, texniki peşə və sürücülük məktəbləri də ziyarət edilib.

Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev tədris ocaqlarının mövcud vəziyyəti ilə maraqlanıb, həmin müəssisələrin keyfiyyət göstəricilərinin yüksəldilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

### Məktəblərlə tanışlıq

**Daha sonra noyabrın 24-də elm və təhsil naziri Emin Əmrullayev Naxçıvana səfəri çərçivəsində Babək rayonu Yarımca kənd tam orta məktəbində olub.**

Müəssisədə yaradılmış şəraitlə tanış olan elm və təhsil naziri tədris prosesi ilə maraqlanıb, şagird və müəllimlərlə söhbət aparıb.

Məlumat verilib ki, məktəb 2004-cü ildə istifadəyə verilib. 2016-cı ildə isə əsaslı təmir olunub. 342 yerlik məktəb binasında hazırda 300-dən çox şagirdin təlim-tərbiyəsi ilə 35 müəllim məşğul olur.

Təhsil ocağında 4-ü elektron lövhəli olmaqla 19 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinet, kompüter, müəllimlər, STEAM və şahmat otaqları, kitabxana, idman zalı yerləşir. Məktəb kitabxanasında 6 mindən çox ədəbiyyat və dərslik mövcuddur.

Məktəbin kompüter otağında 19 kompüter quraşdırılıb. Elektron lövhəli siniflərdə distant dərslərin keçirilməsi üçün lazımi şərait yaradılıb, həmçinin məktəb elektron dərslikləri ilə təmin edilib.

***

Emin Əmrullayev səfər çərçivəsində Naxçıvan Qarnizonu tam orta məktəbində də olub.

Məktəbdə yaradılmış şəraitlə tanış olan nazirə məlumat verilib ki, təhsil müəssisəsi 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan şəhərində yerləşən hərbi hissələrdə xidmət edənlərin övladlarının təhsil alması məqsədilə yaradılıb.

Fəaliyyəti dövründə davamlı uğurları olan məktəbin şagirdlərinin son 5 ildə ali təhsil müəssisələrinə qəbul nəticələri 100 faiz olub.

Hazırda məktəbdə 36 sinif komplektində 634 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 59 müəllim məşğul olur.

# Emin Əmrullayev Şəki məktəblərində



**Noyabrın 27-də elm və təhsil naziri Emin Əmrullayev şimal-qərb bölgəsinə səfəri çərçivəsində Şəki rayonunun bir sıra məktəblərində olub.**

Şəki şəhəri 11 nömrəli və Baltalı kənd tam orta məktəblərinin şagird-müəllim kollektivi ilə görüşən elm və təhsil naziri tədris prosesini izləyib, məktəbdə yaradılmış şəraitlə tanış olub.

Valideynlərlə də görüşən nazir onların təkliflərini dinləyib.



# Startap ekosisteminin ən irihəcmli memorandumu imzalanıb



**Noyabrın 30-da “InMerge Innovation Summit”in açılış tədbiri keçirilib.**

30 noyabr — 1 dekabr tarixlərini əhatə edəcək sammitə dövlət qurumlarının rəhbər şəxsləri, yerli və beynəlxalq investorlar, özəl şirkət nümayəndələri, dünyaca nüfuzlu şirkətlərin idarəedici üzvləri, çoxsaylı spiker, startap komandaları və digər iştirakçılar qatılıblar.

Sammitin ilk günü ölkədə sahibkarlıq, startap ekosistemi və innovasiya istiqamətləri üçün əlamətdar hadisə baş verib. Belə ki, tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və “PAŞA Holding”in baş icraçı direktoru Cəlal Qasımovun iştirakı ilə qurumlar, eləcə də şirkətlərin müvafiq alttəmsilçi qurumları startap ekosisteminin inkişafına dəstək olacaq memorandum imzalayıblar.

Elm və Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin altqurumları qismində müvafiq olaraq Təhsilin İnkişafı Fondu və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi çıxış ediblər. Memorandumun məqsədi Azərbaycanda sahibkarlıq ruhunun inkişafı, insan kapitalı potensialının artırılması, ekosistemin formalaşdırılmasına dəstək infrastrukturunun gücləndirilməsi və maliyyələşmə istiqamətlərinin inkişafıdır. Eləcə də startap aləmində regionun əsas oyunçusuna çevrilmək məqsədlər sırasındadır.

SABAH.HUB İnnovasiya Mərkəzi də yuxarıda sadalanan istiqamətlərin həyata keçirilməsində birbaşa icraedici funksionallığı daşıyacaq təmsilçi qismində yer alıb.

Nəzərinizə çatdırırıq ki, SABAH.HUB İnnovasiya Mərkəzi 2 ildən artıq müddətdə 50-dən artıq startapın inkişafına, 100-lərlə ideyanın startapa çevrilməsinə və 1000-lərlə şəxsin startap dünyası haqqında maariflənməsinə dəstək olub. Mərkəzin fəaliyyəti dövründə birbaşa dəstək göstərdiyi startaplar xarici fondlardan ümumilikdə 4,7 milyon AZN investisiya cəlb edib. SABAH.HUB İnnovasiya Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olmaq, mütəmadi yeniliklərdən kənar qalmamaq üçün rəsmi sosial media kanallarını (facebook.com/sabah.hub.ic və instagram.com/sabah.hub), həmçinin veb-saytı (www.sabahhub.com) izləyə bilərsiniz.

# Qarabağ Universiteti növbəti tədris ilindən fəaliyyətə başlayacaq

## Emin Əmrullayev: “Azərbaycanda və dünyada yaşayan tanınmış alimlər Qarabağ Universitetində işləmək üçün artıq müraciət edirlər.”

**Növbəti tədris ilindən Qarabağ Universiteti fəaliyyətə başlayacaq.**



Elm və təhsil naziri Emin Əmrullayev noyabrın 30-da keçirdiyi brifinqdə Qarabağ Universitet ilə bağlı planlardan danışıb. Onun sözlərinə görə, infrastruktur burada 2000-3000 tələbənin təhsil almasına imkan versə də, tamamilə sıfırdan qurulacaq universitetdə ilk il üçün 800-1000 tələbənin təhsil alması planlaşdırılır.

Qəbul imtahanlarında tələbələri ənənəvi qaydada seçiləcək yeni universitetdə həm də SABAH qruplarında təhsil alan istedadlı gənclərin təhsili nəzərdə tutulur. Bundan başqa, ölkəmizdəki digər ali təhsil müəssisələri ilə mübadilə proqramları və ya ikili diplom proqramları da işlək olacaq.

**4 fakültə olacaq**

Universitet ilk mərhələdə 4 fakültə - beynəlxalq münasibətlər, regionşünaslıq, tarix, kommunikasiya və rəqəmsal media fakültələri ilə yola çıxacaq. Sonrakı mərhələdə kənd təsərrüfatı, təbiət elmləri üzrə fakültələrin təşkili də planlaşdırılır: “Qarabağ Universitetində, əsasən müəllimlik ixtisasına geniş yer ayrılacaq. Bundan əlavə tikinti-quruculuq işlərinin həyata keçirilməsi üçün mütləq mühəndislik ixtisası təsis olunacaq. Növbəti 2-3 ay ərzində tədris olunacaq ixtisasların siyahısı dəqiqləşdiriləcək ictimaiyyətə açıqlanacaq”.

Nazirin sözlərinə görə, kadr hazırlığı təşkil ediləcək ixtisaslar ehtiyaca görə yox, imkanlara görə müəyyənləşdirilir: “İlkin mərhələdə texniki cəhətdən hansı ixtisaslarla başlamaq mümkündürsə, həmin ixtisaslar üzrə kadr hazırlığı təşkil ediləcək”.

**Tanınmış alimlər Qarabağ Universitetində işləmək istəyir**

Kadr hazırlığının təşkilində təhsilverənlər önəmlidir. Odur ki, akademik heyətlə bağlı planlar da var. Nazir hesab edir ki, professor və müəllim heyətinin intensiv modullar əsasında Xankəndinə səfəri və onlayn qaydada tədrisin təşkili mümkündür. 30-40 nəfərin orada daimi yerləşməsi imkanlarından da danışan nazirin sözlərinə görə, müəllimlərin bir qismi yaxın ərazidə yaşayacaq.

Qarabağ Universitetinin yaradılması ilə bağlı qərar cəmi bir neçə gündür elan edilib. Buna baxmayaraq, universitetə böyük maraq olduğunu dilə gətirən nazir bu ali məktəbdə çalışmaq istəklərindən də danışıb: “Azərbaycanda və dünyada yaşayan tanınmış alimlər Qarabağ Universitetində işləmək üçün artıq müraciət edirlər. Müraciətlər həm işləmək üçün, həm də yardım məqsədi ilə edilir”.

Nazir brifinqdə müəllimlərin sertifikatlaşdırılması prosesinin növbəti mərhələsi barədə də məlumat verib. Bu il riyaziyyat, Azərbaycan dili (dövlət dili kimi), rus dili, alman dili, ingilis dili, fransız dili, tədrisi rus dilində aparılan siniflərdə rus dili və ədəbiyyatı müəllimlərinin sertifikatlaşdırılacağını deyib. Prosesin sonunda müəllimlərin göstərdiyi nəticədən asılı olaraq, təqribən 60 min müəllim sertifikatlaşdırılmış olacaq.

Emin Əmrullayev müəllim və şagird münasibətləri, təhsil müəssisələrində baş verən problemlər və başqa məsələlərlə bağlı sualları da cavablandırıb.

**Ruhiyyə DAŞSALAHLI**




# İdeyadan gerçəyə

## Məktəbli startapçılar Beynəlxalq STEAM Azərbaycan Festivalına hazırdırlar

**2022-ci ilin mart ayından Bakı Şəhəri üzrə Təhsil İdarəsi və AzEdu Təhsil Portalı tərəfindən start verilən “Məktəbli startapçılar” adlı layihədə paytaxt məktəblərində təhsil alan istedadlı, təşəbbüskar məktəblilərin uğurlu startap layihələrindən bəhs olunur. “Məktəbli startapçılar” layihəsinin məqsədi yaradıcı və yenilikləri ilə fərqlənən, sadəcə məktəbdə öyrəndikləri ilə kifayətlənməyib daha çox məlumat əldə etməyə çalışaraq fərqli işlər ərsəyə gətirən Bakı məktəblərinin istedadlı gənc startapçılarını ictimaiyyətə tanıtmaqdan ibarət olub. “Azərbaycan müəllimi” qəzeti olaraq Bakı məktəblərinin istedadlı startapçılarını və onların layihələrini ictimaiyyətə daha yaxından tanıtmaq məqsədilə növbəti reportajımızı paytaxtın Binəqədi rayonunda yerləşən Namiq Babayev adına 144 nömrəli tam orta məktəbdən hazırladıq.**

**“Böyük ruh yüksəkliyi ilə festivala hazırlaşırıq”**

Müsahibimiz N.Babayev adına 144 nömrəli tam orta məktəbin informatika müəllimi, STEAM layihəsinin rəhbəri Lütviyyə Yolçuyeva 2022-2023-cü tədris ilindən “Məktəbli startapçılar” layihəsinə qoşulduqlarını bildirdi: “Mən 144 nömrəli tam orta məktəbdə rəqəmsal bacarıqlar və STEAM fənlərini tədris edirəm. Müəllimliyə başladığım ilk vaxtlardan bu günə qədər bir sıra layihələrdə yer almışam. 2022-2023-cü tədris ilində “Biliyini paylaş” layihəsinin tətbiqində mentor kimi fəaliyyət göstərərək komandamla birlikdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən yüksək qiymətləndirilmişik. Hazırda 4-8 dekabr tarixlərində keçiriləcək SAF 2023 Beynəlxalq STEAM Azərbaycan Festivalında məktəbimizi FLL (First Lego League) kateqoriyası üzrə təmsil edəcək “Lego Desert” komandasının mentoruyam. Komanda üzvləri olan şagirdlərimizlə böyük ruh yüksəkliyi ilə festivala hazırlaşırıq”.

**“Ən böyük arzum xarici universitetlərin birində “Kiber təhlükəsizlik” ixtisası üzrə təhsil almaqdır”**

Məktəbin 8-ci sinif şagirdi Burhan Orucov: “Layihəmin adı “Masterpiece” (şedevr, şah əsəri), mövzusu isə çirkli suların təmizlənməsi ilə bağlıdır. Bu layihə üçün hazırladığımız robot suyun altında yığılan plastikləri toplayır. Biz isə əldə olunan plastiklərdən normal şəraitdə təbiətdə yaşamağı mümkün olmayan xəstə balıqlar üçün hidrohospital hazırlayırıq və bu hidrohospitallar bizim “masterpiece”-miz, yəni şah əsərimiz olur. Mən artıq 2 ildir ki, “STEAM Azərbaycan”-ın təşkil etdiyi yarışlarda iştirak edirəm. Keçən il keçirilən FLL robot texnologiyaları turnirində komandamla birlikdə III yeri tutduq. Bundan əlavə, “Düşünən şagird” hekayə müsabiqəsində iştirak edib II yerə layiq görülmüşəm. Mənim ən böyük gələcək planım xarici universitetlərin birində “Kiber təhlükəsizlik” ixtisası üzrə təhsil alıb bir mütəxəssis kimi vətənimə xidmət etməkdir”.

**“İnanırıq ki, müsabiqədə yüksək yer tutacağıq”**

7-ci sinif şagirdi Dəniz Aslanlı: “Layihəmiz haqqında onu deyə bilərəm ki, dəniz və okeanlara atılan tullantılar orada yaşayan canlıların həyatına ziyan vurur. Biz komandamızla canlılara zərər verən, həyatına son qoyan zərərli tullantılarla onlara həyat veririk. Bəs bu, necə ola bilər? Biz komanda yoldaşlarımız ilə plastik və şüşə qablardan balıqlara akvarium düzəltdik və hətta filtri belə plastik və şüşə qabdan hazırladıq. Mən bu zamana qədər çox sayda müsabiqələrə qatılmışam. Lütfi Zadə adına məntiq olimpiadasında, riyaziyyat və Azərbaycan dili olimpiadalarında, fizika və biologiya gecələrində, EDUGrata imtahanlarında, basketbol yarışlarında, ümumiyyətlə, bir çox intellektual yarışlarda və digər müxtəlif müsabiqələrdə uğurla iştirak etmişəm. Bu il biz komanda yoldaşlarımızla FLL (First Lego League) kateqoriyasının seçim turunda iştirak etdik və inanırıq ki, müsabiqədə də yüksək yer tutacağıq. Gələcək planlarım odur ki, mən dünyada tanınmış basketbolçulardan biri olmaq istəyirəm və heç vaxt bu fikrimdən daşınmayacağam. Eyni zamanda rəsm çəkməyə böyük marağım olduğu üçün bu sahə ilə bağlı bacarıqlarımı inkişaf etdirmək arzusundayam”.

**“Layihəmizi qəhrəman Azərbaycan əsgərlərinə həsr etmişik”**

9-cu sinif şagirdi Murad Balacayev: “Məktəbimizdə yaratdığımız komandanın adı “MYSTERİUS TEAM” adlanır və mən bu komandanın kapitanıyam. Ötən illər təşkil olunan yarışlarda iştirak edərək 3-cü yerə layiq görülmüşəm. Bizim komanda üzvlərinin hobbisi atıcılıqdır. Layihəmiz leqodan silahlar düzəltməkdən ibarətdir və bizim komandanın geyimi vətənpərvərlik ruhunda seçilən əsgər paltarıdır. Layihəmizi Vətənin keşiyində məğrur dayanan, torpaqlarımızı işğaldan azad edən qəhrəman Azərbaycan əsgərlərinə həsr etmişik. Gələcək arzum ali təhsil alaraq peşəkar mütəxəssis olmaq, dövlətimiz üçün faydalı layihələr həyata keçirməkdir”.

**“Mənim gələcək planım daha yaxşı kod yazıb və daha yaxşı işləyib 1-ci yerə layiq görülməkdir”**

8-ci sinif şagirdi İsa Rzayev: Dostlarımla hazırladığımız layihə vətənpərvərlik mövzusundadır. Geyimlərimiz isə əsgər formasıdır. Eyni zamanda bu layihədə Türkiyə və Azərbaycan dostluğu nümayiş olunur. Bizim hobbilərimizdən biri atıcılıq olduğu üçün leqolardan silahlar düzəldərək nümayiş etdiririk. Mənim gələcək planım daha yaxşı kod yazıb və daha yaxşı işləyib 1-ci yerə layiq görülməkdir. Məktəbi bitirdikdən sonra Polis Akademiyasında təhsilimi davam etdirmək istəyirəm. Çox sevdiyim məşğuliyyətlərdən biri də idmandır, Çin döyüş növlərini öyrənirəm və bu sahədə də uğurlarım var.

**Lamiyə ƏLİMƏRDANOVA**

# Könüllülük fərqli bacarıqlar və təcrübə qazandırır

## Nazir müavini SAF könüllüləri ilə görüşüb

**Beynəlxalq STEAM Azərbaycan Festivalı — SAF 2023-də fəaliyyət göstərəcək tələbə-könüllülərlə görüş keçirilib.**





300 tələbənin iştirakı ilə keçirilən görüş Bakı Slavyan Universitetində (BSU) baş tutub.

Görüşdə giriş nitqi ilə çıxış edən BSU-nun rektoru Anar Nağıyev tələbə-gənclərin könüllülük hərəkatından söz açaraq müasir Azərbaycan gəncliyinin formalaşmasında könüllülüyün rolundan danışıb.

Daha sonra görüşdə iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov könüllülük, gənclərin ictimai və sosial fəaliyyətlərdə iştiraklarının əhəmiyyətini vurğulayıb, həmçinin bu fəaliyyətlər vasitəsilə fərqli bacarıqlar və təcrübə qazanmağın önəmini bildirib.

Görüşün üçüncü spikeri "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov olub. İqrar Nəzərov tədbir iştirakçılarına SAF 2023-ün təşkili ilə bağlı məlumat verib və layihənin ölkə üçün əhəmiyyətindən bəhs edib.

Görüş "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin rəhbəri Leyla Zeynalova və "STEAM Azərbaycan" layihəsinin koordinatoru Hafiz Tofidinin təlimləri ilə davam edib.

# Elm və təhsil nazirinin müavini Gürcüstanda səfərdə olub



**Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda səfərdə olub.**

Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri Tbilisi şəhərində yerləşən Heydər Əliyev parkında Ümummilli Liderin abidəsini ziyarət edib və önünə əklil qoyublar.

Daha sonra Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari ilə görüş keçirilib. Görüş zamanı hər iki ölkədə Azərbaycan və gürcü dillərində tədris aparılan məktəblərin fəaliyyəti, müəllimlər üçün ixtisasartırma təlimlərinin təşkili müzakirə olunub, bu təhsil müəssisələri üçün dərsliklərin mübadiləsi yüksək qiymətləndirilib. Eyni zamanda tələbə-müəllim mübadiləsinin zəruriliyi, universitetlərarası əməkdaşlıq məsələlərinə toxunulub.

Səfər çərçivəsində nazir müavini İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin rektoru Caba Samuşia ilə görüşüb. Sözügedən universitetdə Azərbaycan dili və ədəbiyyatı ixtisasının açılmasına dair müzakirə aparılıb və cari ilin may ayında açılışı həyata keçirilən Heydər Əliyev adına auditoriya ziyarət edilib.

Nazir müavini Həsən Həsənli həmçinin Gürcüstan Texniki Universitetinin rektoru David Gurgenidze ilə görüşüb. Sözügedən universitetdə açılması nəzərdə tutulan Azərbaycanşünaslıq Mərkəzinin fəaliyyət göstərəcəyi məkana baxış keçirilib.

# "Təhsil sistemi daima uşaqların yanında, uşaqyönümlü olmalıdır"

## Robert Cenkins: "Biz müəllimin mərkəzi rolunu tanımalı və ona dəstək verməliyik"

**"Yeni çağırışlar" onlayn müzakirə proqramının budəfəki qonağı UNICEF-in baş ofisinin təhsil və yeniyetmələrin inkişafı üzrə direktoru Robert Cenkins olub. Belə ki, Elm və Təhsil Nazirliyinin dəstəyi və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən "Yeni çağırışlar" proqramının 24 noyabr 2023-cü il tarixində yayımlanan bölümündə Robert Cenkins ilə "Təhsil gözləyə bilməz" mövzusunda danışılıb.**

**"T-Network"ün rəhbəri, təhsilin idarə olunması üzrə mütəxəssis Cəfər Mənsiminin təqdimatında davam edən proqram Elm və Təhsil Nazirliyinin "Facebook" səhifəsi üzərindən Mətin Axundlunun tərcüməsi ilə Azərbaycan dilində canlı yayımlanıb.**




### Öyrənmə böhranı

UNICEF-in baş ofisinin təhsil və yeniyetmələrin inkişafı üzrə direktoru Robert Cenkins proqramın girişində uşaqlığı barədə məlumat verərək Kanadanın Ontario vilayətinin mərkəzində yerləşən kənddə böyüyüb, təhsil aldığını diqqətə çatdırıb. Anasının müəllim olduğunu, uşaq olarkən valideynlərinin yaratdığı fürsətin sonradan onun həyatına çox böyük təsir göstərdiyini qeyd edən qonaq hazırda vəzifəsi, gördüyü iş çərçivəsində uşaqların potensialının gerçəkləşdirilməsi, onların təhsil alması, öyrənməsinin önəmindən bəhs edib və bu yolda səy göstərdiyini bildirib.

Qlobal öyrənmə böhranının fövqəladə şəkil aldığını söyləyən UNICEF-in direktoru hazırda qlobal miqyasda 10 yaşına qədər 3 uşaqdan ikisinin sadə cümləni anlaya bilmədiyini deyib. Əsas məsələni təhsilin keyfiyyətində gördüyünü dilə gətirən Robert Cenkins bir qism uşaqların keyfiyyətli təhsil imkanlarının olduğu halda digər uşaqların keyfiyyətli təhsildən faydalanmaq fürsətinin yoxluğunu qeyd edib: "Bu kimi səbəblər öyrənmə böhranını daha da kəskinləşdirir və bərabərsizliyi daha da genişləndirmiş olur. Ümumiyyətlə, təcrid olunmuş, daha aciz vəziyyətdə olan uşaqların mövcudluğu onların müxtəlif kənar təsirlərdən daha da əziyyət çəkməsinə gətirib çıxarır. Misal olaraq, biz bilirik ki, qızlar təhsildə oğlanlarla müqayisədə böhranlardan daha çox əziyyət çəkirlər. Yoxsul ailələrdən olan, ucqar yerlərdə yaşayan, humanitar böhranlardan, təbii fəlakətlərdən, müharibədən əziyyət çəkən uşaqlar bu baxımdan xüsusilə əlacsızdırlar. Digər bəla ondadır ki, bu cür uşaqlar keyfiyyətli təhsil almayanda onların sonrakı nəsillərə ötürəcəyi miras da olmur. Növbəti nəsillər də eyni cür əziyyət çəkirlər və nəticədə bu mənfi miras çıxış yolu olmayan qapalı tələ kimi nəsildən nəslə ötürülür".

### RAPID çərçivəsi

Robert Cenkins qlobal böhrandan çıxış yolu olaraq UNICEF-in tərəfdaşları ilə birlikdə RAPID deyilən çərçivə hazırladığını diqqətə çatdırıb. Qonaq qeyd edib ki, "rapid" ingilis dilində "sürətli" mənasını verir və 5 sözdən ibarət baş hərflərin toplusudur. Burada söhbət aşağıdakı anlayışlardan gedir: R hərfi təcrid olunmuş uşaqların xəritələnməsi, onların təhsilə cəlb olunması və təhsildə qalmasını təmin etməkdən ibarət olan tədbirlərdir. Hər bir uşağın, xüsusilə təcrid olunmuş uşaqların məktəbdə saxlanılması və təhsil imkanları ilə təmin olunmasıdır. A hərfi "assessment", yəni "qiymətləndirmə" sözündən ibarətdir. Bu, müxtəlif səviyyələrdə olan uşaqların nəyi və necə öyrəndiyini qiymətləndirməkdir. P hərfi "prioritising", yəni fundamental məsələlərin prioritetləşdirilməsidir. Cənab Cenkinsin sözlərinə görə, müasir dövrdə kurikulumlar çox həcmlidir və kurikulum okeanında fundamental olan məsələlər yuyulub gedə bilər. Bu səbəbdən onları prioritetləşdirmək önəmlidir. I hərfi öyrənmədə geridə qalan və ya təhsilə çıxışı məhdud olan uşaqların təhsil sisteminə inteqrasiyasını gücləndirməkdən ibarətdir. Sonuncu D amili təhlükəsiz mühitdə inkişafın təmin olunmasıdır. Burada şagirdlərin psixo-sosial imkanlarının artırılması, psixoloji sağlamlığın təmin olunması kimi əsas bünövrə məsələlər yer alır.

### Keyfiyyətli təhsil

UNICEF-in baş ofisinin təhsil və yeniyetmələrin inkişafı üzrə direktorunun fikrincə, uşağın məktəbə gedərkən artıq hazırlıqlı olması çox vacib faktordur. R.Cenkins deyib: "Uşağı erkən yaşlarından, yəni 3-4 yaşından məktəbə hazırlamaq lazımdır. Burada edilən yatırımların rentabelliyi çox müsbətdir. 3-4 yaşında uşağa qoyulan sərmayə, ayrılan resurslar sonradan çox böyük bəhrə verir. İbtidai təhsildən ən azı 1 il öncə uşaqların belə hazırlıq imkanlarının olması çox vacibdir. Getdikcə artan bərabərsizliyin aradan qaldırılması üzrə vacib məqamlardan biri odur ki, bütün uşaqlar, xüsusilə iqtisadi imkanları zəif olan ailələrin uşaqları üçün münbit təhsil şəraiti yaradılsın. İqtisadi təsirdən danışdıqda onların bütöv bir vətəndaş kimi formalaşması üçün mövcud olan disproporsional imkanları aradan qaldırmaq lazımdır. Təhsil sistemi öyrənmə səyahətində hansı səviyyədə olmasından asılı olmayaraq daima uşaqların yanında, uşaqyönümlü olmalıdır. Xüsusilə əlilliyi olan, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün inklüziv təhsil mühitinin, əlçatan imkanların yaradılması və ümumi təhsil sisteminə inteqrasiyası ən vacib məsələlərdəndir. Bütün bu dediklərim uşaqların bütün potensialının gerçəkləşdirilməsi və yaxşı məktəb mühitinin yaradılmasının əsas xarakterik cəhətləri, amilləridir".

### Müəllimə dəstək

R.Cenkins təhsili təkmilləşdirməyin yollarından bəhs edərkən müəllimlərin səlahiyyətinin və motivasiyasının artırılmasına diqqət çəkərək qeyd edib: "Müəllimlər hər bir uşağın öyrənməsi və cəmiyyətin inkişafı yolunda mərkəzi rola sahibdirlər. Biz istər valideyn, istər icma rəhbərləri olaraq müəllimin mərkəzi rolunu tanımalı və ona dəstək verməliyik. Təhsil sisteminin uğurla təsir tapması üçün müəllim həlledici vasitədir. Hazırda təhsil sistemində transformasiya baş verir. Müəllim lazımınca dəstək alsa, səlahiyyətləndirilsə və təlim görsə, bacarıqlarını artıra bilsə bu transformasiya prosesində itməyəcək və prosesə əlavə dəyərlərini qatacaqdır. UNICEF tərəfdaşları, müxtəlif dövlətlərin hökumətləri ilə birlikdə məhz müəllimlərə olan dəstəyi təbliğ və təşviq etməyə çalışır. Bu dəstək onların rifahı, güzəranı, iş şəraitinin lazımi şəkildə təşkil olunması, istərsə də onların peşə inkişafı, təlimləndirilməsi, ixtisasartırması baxımından lazımi imkanlarla təmin olunmasıdır. Kurikulum əsasında məktəbdə lazımi qərarlar vermək üçün müəllimin kifayət qədər səlahiyyəti olmalıdır. Xüsusilə rəqəmsal sahədə baş verən texnoloji dəyişiklikləri nəzərə alaraq müəllim texnoloji dəyişikliklərdən istifadə etməlidir ki, onun yaratdığı müsbət təsir maksimum olsun".

### XXI əsr bacarıqları

UNICEF direktorunun fikrincə, uşaqların sonradan həyatları boyunca tətbiq edilməsi lazım olan iş bacarıqlarına yiyələnməməsi gələcəkdə onların yoxsulluqla üzləşməsi deməkdir. Uşaqlar lazımi bacarıqlara yiyələnmədiklərinə görə sonradan əmək bazarında lazımsız olurlar. Uşaqların uğurla yetkinlik həyatına qədəm qoyması üçün onlardan digər bacarıqlarla yanaşı iş bacarıqları tələb olunur. Qonaq böyüyən nəslin oxu, yazı, riyaziyyat kimi təməl bacarıqlarla yanaşı, kritik düşüncə, problemləri həll etmə, kommunikasiya, digər şəxslərlə qarşılıqlı əlaqələrin yaradılması və s. kimi XXI əsr bacarıqlarına da sahib olmasının önəmindən danışıb. Bunlarla yanaşı rəqəmsal, konkret ixtisas sahəsində olan peşə bacarıqları, yaşıl bacarıqlar, yaşıl iqtisadiyyatın gündəmdə olduğunu vurğulayaraq uşaqlar üçün əlçatan edilməsinin vacibliyinə toxunub.

### 8 guşəli yeni çağırışlar

**Proqramın ənənəvi "Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, daha təhsilli gələcək üçün onun guşələri hansı çağırışlardan ibarət olar?" sualının cavabında Robert Cenkins aşağıdakı çağırışları səsləndirib:**

1. Hər bir uşaq ibtidai səviyyədən ən azı 1 il öncə məktəbə hazırlıq görməlidir. Erkən təhsilə sərf olunan yüksək sərmayə mütləq olaraq öz müsbət təsirini göstərir.
2. Təməl öyrənmə amili. Söhbət 10 yaşına kimi oxu, yazı və riyazi biliklərin əldə edilməsindən gedir. Əvvəllər oxunu mənimsəmək üçün, artıq isə öyrənmək, inkişaf etmək üçün öyrənirik.
3. Yeniyetmələrin sahiblənməsi üçün lazımi bacarıqlarla təmin olunması, böyüyəndə həyatlarında bu bacarıqları tətbiq etmələri üçün aktual olan bacarıqların onlar üçün əlçatan edilməsi.
4. Artan iqlim dəyişikliyinin, böhranların, müxtəlif hadisələrin təsiri fonunda uşaqların yenə də öyrənmə həvəsinin vacibliyi. Onlar müəyyən bacarıqlara yiyələnməli və böhran şəraitlərində belə öyrənməyə davam etməlidirlər.
5. Bərabərsizliyin aradan qaldırılması, xüsusilə təcrid olunmuş, kənarda qalan uşaqların prosesə cəlb olunması, gender baryerlərinin aradan qaldırılması, qızların təhsildən yararlanması üçün bütün imkanlarla təmin olunması.
6. İqlim dəyişikliyi ilə bağlı olan təhsil prosesi. Biz uşaqlara elə bacarıqlar çatdırmalıyıq, lazımi səriştələrlə təmin etməliyik ki, onlar iqlim dəyişikliyi sahəsində savadlansınlar və iqlim dəyişikliyinin çempionları olsunlar, burada katalizator rolunu oynasınlar.
7. Rəqəmsal öyrənmə - elə etməliyik ki, uşaqlar rəqəmsal transformasiyadan bəhrələnsinlər. Sonradan uşaqların mənimsədiyi rəqəmsal bacarıqları təhsilin inkişafı istiqamətində məqsədyönlü şəkildə istifadə edə bilərik.
8. Bizim baxışımızın, sadaladıqlarımızın reallığa çevrilməsi üçün təhsil istiqamətində büdcədən resursların, maliyyələrin ayrılması. Bu mənada təhsilin maliyyələşdirilməsi dünyada hələ də bir çağırış olaraq qalmaqdadır".

Görüşün sonunda Robert Cenkins təhsil sahəsində çalışan şəxslərə hər bir uşağın bənzərsiz olduğunu nəzərə almağı, uşaqlar olan yerdə olmağı tövsiyə edib.

**Lamiyə ƏLİMƏRDANOVA**

# EFFEKTİV KOMMUNİKASİYA

**Ömürboyu öyrən. Bu, indi zamanın tələbidir. Zamanın tələbini necə ödəmək isə hər insanın öz üzərinə düşür. İstəyirsən əyləndərək, istəyirsən dinləyərək öyrən. Bu günlərdə Elm və Təhsil Nazirliyinin (ETN) təşkilatçılığı ilə dinləyərək öyrənməyi özündə ehtiva edən maraqlı bir tədbir baş tutdu. Noyabrın 28-də gerçəkləşən həmin tədbir təkcə bu il ərzində nazirliyin bir sıra tabe qurumlarının qatıldığı, məlumatlandırdığı, bütün sualları cavablandırdığı IV seminar-təlim idi. "Effektiv kommunikasiya" mövzusunda keçirilən seminar-təlimin iştirakçıları media nümayəndələri ilə yanaşı, həm də nazirliyin qurum və layihələrinin, regional təhsil idarələrinin, ali təhsil müəssisələrinin ictimaiyyətlə əlaqələrə məsul əməkdaşları oldu.**





## Media subyektləri ilə Elm və Təhsil Nazirliyinin qurumları arasında şəbəkələşmə artırılır



### Nazirliyin əsas fəaliyyət istiqamətləri müzakirədə

Müzakirə olunan məsələlərə gəlincə, bu, nazirliyin tabe qurumlarının əsas fəaliyyət istiqamətləri ilə bağlı ən müxtəlif mövzuları əhatə etdi. Məsələn, təhsil islahatlarının toplandığı, fəaliyyət planına çevrilərək icraya yönəldildiyi, icra vəziyyətinin izlənildiyi və hesabat şəklində ortaya çıxarıldığı şöbənin - Təhsil islahatlarının əlaqələndirilməsi şöbəsinin fəaliyyəti ilə bağlı təqdim edilən informasiya media üçün, demək olar ki, tamamilə yeni idi. Şöbənin müdiri Leyla Xəlilova-Rzazadə Elm və Təhsil Nazirliyinin Fəaliyyət Planının əsas strateji istiqamətlərini diqqətə çatdırdı.

Jurnalistlər üçün çoxdan gözlənilən mövzular da müzakirələrdə yer aldı. Nazirliyin yeni agentlikləri - istər Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin, istərsə də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin fəaliyyəti böyük maraq doğurdu. Eşqi Bağırov direktoru olduğu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin fəaliyyət istiqamətlərini, Ülkər Səttarova isə rəhbəri olduğu Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin hədəflərini, planlarını açıqladı. Artıq yeni strukturlarda təşkil edilən təhsil səviyyələrində qeydə alınan, gözlənilən yeniliklər göz önünə sərgilədilər.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov peşə təhsilində nail olduqları uğurlarla yanaşı, problemlərə də diqqət çəkdi, peşə təhsili səviyyəsinin keyfiyyətinə təsir edən ənənəvi peşə təhsili modelinin uğursuzluğuna toxundu. Amma vəziyyətdən çıxış yolu axtardıqlarını və artıq konkret addımlar atmağa hazırlaşdıqlarını da vurğuladı.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədr müavini, sədr vəzifəsinin müvəqqəti icraçısı Kamran Rəsulov isə 2023-cü il ərzində həyata keçirdikləri fəaliyyətə nəzər saldı. Onun sözlərinə görə, indiyədək xaricdə təhsil sənədinin tanınması ilə bağlı 6270 müraciət daxil olub. 5215 müraciətə (83 faiz) müsbət, 1055 müraciətə (27 faiz) isə mənfi cavab verilib.

K.Rəsulov fəaliyyətlərində hər kəsin çoxdan gözlədiyi irəliləyişi də qeyd etdi. Belə ki, bu sahədə ən böyük yenilik müraciətlərin cavablandırılması müddəti ilə bağlıdır. Bu ilin fevralında təsdiq edilən "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na görə, artıq müraciətlər 3-4 aya yox, 12-13 gün ərzində cavablandırılır.

### Seminar-təlim məqsədinə çatdı

2023-cü il sona yaxınlaşır. Bu il ərzində keçirilən IV və son tədbir də media sahəsində peşəkar vərdişlərin inkişafına yönəldi, qurumlar və media arasında kommunikasiyanın düzgün təşkilinə həsr edildi. Bəs, məqsədinə çatdımı? Əlbəttə ki, çatdı.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli kommunikasiyanı möhkəmləndirmək, daha operativ informasiyanı təmin etmək məqsədi daşıyan seminar-təlimin gözlənilən nəticələrinə diqqət çəkdi. Aparat rəhbəri, seminar-təlimlərin media subyektləri ilə Elm və Təhsil Nazirliyinin müxtəlif qurumları arasındakı mövcud şəbəkələşməni artırmaqda roluna inanır.

---

## "Əməkdar müəllimlərimizi tanıyaq"

# Şagird kimi çıxdığı Laçına Əməkdar müəllim kimi dönəcək

**Ay Laçın, can Laçın... İllərdir həsrət dolu baxışlarını yollardan yığa bilməyən daha bir el üçün dünyaya bədəl bir gündür bu gün. "Laçın şəhəri günü"nü qeyd edən evlərdən biri Aminə müəllimin ailəsidir. Ocaqlarına qor düşəndə o, atasının himayəsində idi. Çoxuşaqlı bir ailənin üzvü olsa da, yoxluq nədir, öyrənməmişdi. Ən böyük dərdi hansısa ona çətin gələn məsələnin həlli, ən böyük sevinci onun üçün alınan yeni kitablar, geyimlər idi. Bir gündə, bir gecədə dəyişdi dövranın gərdişi. Bir anın içində evindən, sadəcə geyimini götürüb çıxan, qaçqına-köçkünə çevrilən ailələrdən biri oldu onun da ailəsi.**

**O günlər getsin, gəlməsin! Bu gün ən böyük duası bu olan həmin ailə indi Laçında yaşayacaqları evin hazır olacağı günü gözləyir: "İllərdir məktəb tədbirlərində "Gün o gün olsun, Laçına qayıdaq", "Bu bayramı Laçında qeyd edək", - kimi arzular səsləndirirdik. Artıq o gün gəlib. Laçına getmişdim, qayıdan andan darıxmağa başladım. Səbirsizliklə gözləyirik ki, gedib Laçında işləyək".**

**Ata himayəsindən ayrılıb 30 ildə özünə düzən quran Aminə müəllim burada qurub-yaratdığı hər şeyin üstündən xətt çəkməyə, yenidən Laçına qayıtmağa hazırdır. Laçından ötrü burnunun ucu göynəyən o müəllim şagird olaraq çıxdığı torpağına Əməkdar müəllim kimi dönəcək.**

## *Aminə Kərəmli:* "Səbirsizliklə gözləyirik ki, gedib Laçında işləyək"

### Məcburi köçkünlüyün bitirdiyi uşaqlıq

"Əməkdar müəllimlərimizi tanıyaq" rubrikasının növbəti qonağı Laçın rayon 18 nömrəli tam orta məktəbin kimya müəllimi Aminə Kərəmli 25 illik müəllim təcrübəsinə sahibdir. Laçında doğulub, uşaqlığı orada keçib, Laçın məktəblisi olub. Amma Laçın şəhər 1 nömrəli tam orta məktəbində başladığı orta təhsilini, həm də uşaqlığını tamamlaya bilməyib. Yeniyetməlik dövrünə düşən məcburi köçkün həyatının necə olub qəzasız-bəlasız atladıb, özü də təəccüblənir: "İndi düşünürəm ki, yeniyetməlik dövrü nə qədər çətin dövrdür və mən bu dövrü necə keçirtmişəm. Qohum evində yaşayırdıq. Halbuki Laçında hər şəraiti, həyət-bacası, bağı-bağçası olan bir evdə yaşamışdıq. Geniş evdən sonra bir otağa sığışmaq asan olmadı".

Bütün çətinliklərə baxmayaraq, oxudular: "4 uşaq idik, üçümüz universitetə getmək üçün evdən çıxırdıq. Hər birimizə yol pulu lazım idi, amma elə olurdu hamımıza çatmırdı. Bu çətinliklərə baxmayaraq oxuduq, universiteti bitirib bacarığımıza uyğun yer tutduq".

### Bakıda Laçın məktəbi

Aminə də müəllim oldu: "Biologiyadan müəllimim Sevil Ağakişiyeva sayəsində ən yüksək bal topladım, kimya müəllimim Dilşad Beşirovanın dəstəyi də həlledici oldu. Onların dəstəyi olmadan bu günlərə çətin gələrdim. Bəziləri ilə sonradan çiyin-çiyinə də işlədik".

Söhbət Bakıdakı Laçın məktəbindən, o məktəbin müəllimlərindən gedir: "Biz Bakıya gələndən sonra Yeni Günəşlidə Laçın məktəbi açıldı. Həmin məktəbdə oxudum, universiteti bitirib elə həmin məktəbdə də işlədim".

### "Qaçqın məktəbi"ndən universitetə...

"Qaçqın məktəbi"ndə aldığı dəstək öz nəticəsini göstərdi. A.Kərəmli qəbul imtahanlarında uğurlu nəticə göstərdi, tələbə adı qazandı. O vaxt N.Tusinin adını daşıyan Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Kimya müəllimliyi" ixtisasına qəbul olundu. Tələbəlik illəri də bir göz qırpımında keçdi: "Universteti bitirib 3 nömrəli Laçın rayon tam orta məktəbində işə başladım. 15 il burada işlədikdən sonra 18 nömrəli tam orta məktəbinə yerdəyişmə etdim".

Yerdəyişmə çox rahat olub: "Diaqnostik qiymətləndirmədə ən yüksək nəticə göstərən 3 nəfərdən biri idim. Çoxları dedi ki, bu qədər böyük nəticə ilə istənilən məktəbə yerdəyişmə edə bilərəm, istəmədim. Çünki seçdiyim evimin yaxınlığında olan və özümün də təhsil aldığım Laçın məktəbi idi. Laçın adı mənə hər zaman doğma olub. 26 ildir ki, Laçın məktəbinin müəllimiyəm".



### Laçın məktəbi yaxşı müəllim olmaq üçün meydandır

Laçın məktəbi onun üçün qürur mənbəyi olduğu qədər, həm də mübarizə meydanıdır. Yaxşı dərs demək üçün, yaxşı müəllim ola bilmək üçün o da mübarizə aparmalı olub. Ümumiyyətlə, maraqlı dərs keçməyə, dərslərində daim yeniliklər etməyə maraqlıdır: "Yaradıcılığa meyilliyəm. Xoşum gəlir yeni nəsə yaratmaqdan, yenilik etməkdən. Uşaqlarla işləmək zövq verir. Kitabdan oxuduqları reaksiyaları görəndə daha yaxşı dərk edirlər, yadlarında birdəfəlik qalır".

### "Bu adı daşımaq fərqli hissdir"

"Başımı salıb işləmişəm", - desə də, arada başını qaldırıb "Bəs, mən?!", - deyi vaxtlar da olub. Məsələn, diaqnostik qiymətləndirmədə 60 baldan 59 bal toplayaraq kimya fənni üzrə ölkədə ən yüksək nəticə göstərən 3 müəllimdən biri olduğunun fərqinə varıb: "Nə etmişəmsə, peşəmə sevgimlə etmişəm. Ona görə də işimə daim ixlasli sarıldım. Demək ki, hər şeyin öz vaxtı varmış".

Vaxtı isə 3 il əvvəl yetişib: "Direktor mənə dedi ki, təqdimatımı istəyiblər, nəsə mükafat verəcəklər. Heç ağlıma gəlməzdi ki, "Əməkdar müəllim" adı alaram. Elə bilirdim ki, bu adı yaşlı müəllimlərə verirlər. Təltif günü yaxınlaşanda direktorumuz zəng edib xəbər verdi ki, "Əməkdar müəllim" adına layiq görülmüşəm. Qulaqlarıma inanmadım. "Axı mən qoca deyiləm", - desəm də, çox sevindim. Bu şərəfli ada layiq görüldüyüm üçün qürur duydum. Laçınlı olaraq, müəllim olaraq bu adı daşımaq fərqli hissdir".

### Sertifikatlaşdırmanı gözləyir ki, maaşı tez qalxsın

Sertifikasiya prosesinin də uğurlularından olacağına şübhəmiz yoxdur: "Təhsildə islahatları bəyənirəm. Yerdəyişmə prosesinin iştirakçısı kimi deyirəm, evdə oturub telefonla ərizə yazaraq ərazicə yaxınlığımdakı məktəbə yerdəyişmə etdim. İndi də səbirsizliklə sertifikatlaşdırmanı gözləyirəm. Daha tez olsun istəyirəm ki, maaşlarımız qalxsın".

Aminə müəllim, sadəcə müəllimlik etməklə kifayətlənmir, ara-sıra məqalələr yazır, onları yerli və beynəlxalq nəşrlərdə dərc etdirir: "2 ölkədə elmi məqaləm dərc olunub, kitab müəllifiyəm. Elmi redaktoru olduğum kitab bu yaxınlarda nəşr olundu. İşimə aid məsələlərdə daim fəal olmuşam".

Olimpiada iştirakçıları, qalibləri, qəbul imtahanlarının uğurluları çoxdur şagirdləri arasında: "Getdikcə şagirdlərimizin sayı azalır. Şagird az olsa da, qəbul faizimiz yüksək olur".

**Səhifəni hazırladı:**
**Ruhiyyə DAŞSALAHLI**

# "Universitetlər yaradıcı mütəxəssislər hazırlamalıdır"

## Qərib Mürşüdov: "Əsas diqqət Azərbaycanda elmi işlərin keyfiyyətinin yüksəldilməsinə yönəldilməlidir"

**"Azərbaycan müəllimi" qəzetinin büdəfəki müsahibi Böyük Britaniyanın Kembric Universitetinin professoru Qərib Mürşüdovdur. O, Kembric Universitetinin Tibbi Tədqiqatlar şöbəsinin Molekulyar Biologiya Laboratoriyasında (MBL) qrup rəhbəridir. Oxuculara onu da çatdıraq ki, bu vaxta qədər MBL alimlərinin 12 işi Nobel mükafatına layiq görülüb: 9-u kimya, 3-ü isə fiziologiya və tibb üzrə. Bu mükafatlar ilkin elmi tədqiqatlar və molekulyar biologiya üçün qabaqcıl üsulların inkişafı istiqamətində əsas nailiyyətləri qeyd edir. Q.Mürşüdovla rəhbərlik etdiyi Tədqiqat Qrupunun fəaliyyət istiqamətləri, əldə olunan nəticələr və onların elmi əhəmiyyəti, eləcə də ölkəmizdə elm və təhsilin təşkili barədə söhbətləşirik.**



### "Elmi işlərimə 62000-dən çox istinad var"

– Mənim tədqiqat qrupum Böyük Britaniyanın Tibb Tədqiqatlar şöbəsinin Kembricdə yerləşən Molekulyar Biologiya Laboratoriyasında çalışır. Elmi qrupun adı Hesablama Struktur Biologiyasıdır. Əsas məqsədimiz eksperimental verilənlərdən istifadə edərək makromolekulların üçölçülü quruluş modellərinin alınması üçün istifadə edilən proqram təminatı yaratmaqdır. Biz riyaziyyatdan, kompüter elmlərindən istifadə edərək yeni üsulları inkişaf etdiririk və onları proqramlarda yazaraq struktur biologiya cəmiyyətinə təqdim edirik. Bizim proqramlardan dünyanın hər bir tərəfində istifadə olunur. Bizim elmi işlərə çoxsaylı istinadlar olur, bu isə gördüyümüz işlərin vacibliyini göstərir. Məsələn, Google Scholar göstərir ki, mənim özümün elmi işlərimə 62000-dən çox istinad var, H-faktor isə 59-dur.

Onu da qeyd edim ki, Azərbaycanda elmin inkişafına və əsasən də gənclərin elmi işlərində kömək etmək üçün mən Azərbaycanda Molekulyar Biologiya və Biotexnologiya İnstitunda da elmi laboratoriyaya rəhbərlik edirəm. Bu laboratoriyada işlərimiz istədiyim kimi sürətlə getməsə də artıq müəyyən nəticələrə nail olmuşuq.

### "Müxtəlif sahələrin əməkdaşlığı vacibdir"

*– Hazırda elmlərin inteqrasiyası baş verir və bir çox kəşflər də elmlərin qovşağında baş verir. Eləcə də riyaziyyatla molekulyar biologiyanın sıx inteqrasiyası. Bu barədə fikirlərinizi bilmək istərdik.*

– Tamamilə razıyam ki, elm və texnologiyanın inkişafı ancaq müxtəlif istiqamətlərdə elmi tədqiqatların bir yerdə istifadəsindən irəli gəlir. Məsələn, struktur biologiyası molekulyar biologiyanın bir tərkibidir. Problemlər bioloji problemlərdir. İstifadə edilən üsullar fizikadan irəli gəlir (rentgen və elektron kimi hissəciklərin səpilməsindən istifadə edərək molekulların şəkillərinin alınması), alınan verilənlərin analizi riyazi və kompüter elmləri üsullarının tətbiqini tələb edir (statistik modellərin qurulması və yoxlanılması), molekulların özləri isə böyük kimyəvi maddələrdir və onların xüsusiyyətini kimyəvi üsullar ilə öyrənmək olar. Bundan əlavə, yeni üsulların inkişafı yeni avadanlıqların yaradılmasını tələb edir, bu isə əsasən elektronik, elektrik və mexaniki mühəndislik bilikləri tələb edir. Ayrı misal: tibbi problemlərin araşdırılması təbabət elmlərindən başqa kimya (verilən xüsusiyyətlərə malik olan maddələrin hazırlanması), fizika (xəstəlik və orqanizmdə gedən ayrı proseslərin qarşılıqlı əlaqəsinin öyrənilməsi), biologiya (xəstəliklər elə bioloji proseslərin bir qismidir), riyaziyyat (xəstəliklərin modelləşdirilməsi, verilənlərin statistik analizi və modelləşdirilməsi), kompüter elmləri (böyük sayda verilənlərin analizi və diaqnoz/proqnozların hazırlanması) və sair kimi sahələrin birgə tədbiqini tələb edir.

Ümumiyyətlə, müasir problemləri araşdırmaq üçün müxtəlif sahələrdən biliklər tələb olunur. Bütün sahələri bilən mütəxəssislərin hazırlanması, demək olar ki, qeyri-mümkündür. Problemlərə yanaşmaq üçün müxtəlif sahələrin əməkdaşlığı vacibdir. Buna nail olmaq üçün şərait yaradılmalıdır. İşlər universitetdəki təhsildən başlayaraq tədqiqat institutlarında elmin təşkilinə qədər müxtəlif mərhələlərdə görülməlidir. Əməkdaşlıqların həvəsləndirilməsi üçün müxtəlif istiqamətdə qrantlar yaratmaq olar.

Sırf elmi istiqamətlərin vacibliyini aşağı salmaq da düzgün olmazdı. İndiyə qədər həm maraqlı və həm də çox çətin olan riyaziyyat, fizika və kimya problemləri həddən artıq çoxdur. Bu istiqamətlərin, fundamental elm istiqamətləri kimi maliyyələşdirilməsi vacibdir. Əvvəl-axır müxtəlif elmi səhələrinin əməkdaşlığı üçün hər bir sahənin kifayət qədər güclü olması vacibdir. Nəzərə almaq lazımdır ki, güclü fundamental elmi sahələr elm və texnologiyanın inkişafı üçün mühit yaradır və bu mühit daxilində yeni elmi istiqamətlər inkişaf edir.

### "Bu istiqamətdə çox işlər görülməlidir"

*– Azərbaycanda elmin dünya elminə inteqrasiya etməsi və tanınması üçün hansı işlər görülməlidir? Alimlərimizə nüfuzlu beynəlxalq elmi bazalara daxil olan jurnallarda dərc olunan məqalələrin sayını artırmaq üçün nə kimi tövsiyələr verərdiniz?*

– Mənə belə gəlir ki, əsas diqqət Azərbaycanda elmi işlərin keyfiyyətinin yüksəldilməsinə yönəldilməlidir. Əgər elmi işlərin keyfiyyəti yuxarıdırsa, onda dünyada gedən elmi proseslərdə iştirak etmək üçün müxtəlif mexanizmlər var, onlardan istifadə etmək olar. Hər bir sahədə elmi konfranslar var, onlarda iştirak etmək lazımdır. Əsl elmi konfranslarda iştirak etmək üçün maliyyələr olmalıdır. Əsasən gənclərin belə konfranslarda iştirak etməsi daha məsləhət olardı. Bu konfranslar elmi işlərin təqdimatından əlavə gənclər üçün əlaqələr şəbəkəsi yaratmağa imkan verir. Gənclər elm sahəsində hansı müasir işlərin görüldüyü, onların necə müzakirə olunduğunu əyani görürlər. Əgər elmi işlərin keyfiyyəti yuxarıdırsa onda bu işlər elmi jurnallarda nəşr olunmalıdır. Yenə də, nəzərə almaq lazımdır ki, külli miqdarda "yırtıcı jurnallar" var. Onlardan qaçmaq lazımdır. Yekunlaşdırsaq, birinci və əsas məqsəd elmi tədqiqatların keyfiyyətinin qaldırılması olmalıdır. Əgər buna nail ola bilsək onda "tanıtmaq" problemini həll etmək asan olar. Bu istiqamətdə çox işlər görülməlidir. İşlər müxtəlif sahələri əhatə etməlidir. Bura orta məktəb təhsili; ali məktəb sistemində islahatlar; elmi tədqiqatların təşkilində islahatlar və tədqiqat institutlarının maliyyələşdirilməsinə yenidən baxılması; yeni tipli tədqiqat institutlarının yaradılması; Azərbaycanda elmi təşkilatların yaradılması və onların beynəlxalq elmi təşkilatlara üzv olması kimi sahələrdə işlər daxildir.

### "Yeni elmi mühiti olan tədqiqat institutları yaratmaq lazımdır"

*–Azərbaycanda yeni nəsil tədqiqatçıların yetişdirilməsi üçün nə kimi təklifləriniz vardır?*

–Yeni nəsil tədqiqatçıların inkişafı üçün bir neçə istiqamətdə işlər görülməlidir. Hazırda əsas iki istiqamət haqda danışmaq olar: a) gənclərin dünyada aparıcı universitetlərdə və ya tədqiqat institutlarında təcrübə alması; b) gələcəkdə bu gənclərin Azərbaycanda fəaliyyəti üçün mühitin yaradılması hissəsini həll etmək çətin deyil və bu istiqamətdə işlər görülür. Dövlət proqramları məhz bu istiqamətdə görülən addımlardır və bunu alqışlamaq lazımdır. Amma, nəzərə almaq lazımdır ki, bu gənclərin Azərbaycanda işləməsi və yaradıcılıqla məşğul olması üçün şərait yaradılmalıdır. Belə şəraitin yaradılması çox mürəkkəb məsələdir. Yeni elmi mühiti olan tədqiqat institutları yaratmaq lazımdır. Bunun üçün həm Azərbaycanda mövcud potensialları olan elmi işçilərdən və həm Azərbaycandan kənarda olan və kifayət qədər inkişaf etmiş azərbaycanlı alimlərdən istifadə etmək olar. Ola bilər ki, iki məsləhətçi komitə yaradılsın: daxili və hazırda potensialları bəlli olan alimlərdən ibarət; Azərbaycandan kənarda olan və Azərbaycan ilə bağlı olan alimlərdən ibarət komitə. Bu komitələr bir-birindən asılı olmasa da daimi müzakirələr apara bilərlər. Birinci komitə üzvləri daxili vəziyyəti daha yaxşı bilirlər, ikinci komitə isə dünyada elmi işlərin necə getdiyini bilirlər. Belə komitələrin yaradılması haqda çox yaxşı fikirləşmək lazımdır.



### "Universitetlər sərbəst işləyə bilən, yaradıcı mütəxəssislər hazırlamalıdırlar"

*– Ali təhsil sistemində tədris və tədqiqatçılıq fəaliyyətlərini necə nizamlamaq olar? Britaniyada bu sahədə hansı təcrübələri qeyd edərdiniz?*

– Britaniyada və bir sıra ölkələrdə universitetlərin əsas məqsədi təhsil olsa da, elmi tədqiqatların əsas hissəsi universitetlərdə həyata keçirilir. Buna nail olmaq üçün müəllim heyətinin dərs yükləri azaldılmalıdır və tələbələr daha çox sərbəst işlər görməlidirlər. Bunun üçün isə təhsil sistemində islahatlar lazımdır. Məsələn, təhsili belə təşkil etmək olar. Fərz etsək ki, universitet təhsili dörd ildən ibarətdir. 1-ci il: 100% mühazirələr, seminarlar və imtahan; 2-ci il: 75% mühazirə/seminar/imtahan, 25% axtarışlar və nəticələrin yazılı və şifahi təqdimatı; 3-cü il: 50% mühazirə/seminar/imtahan, 50% axtarış/təqdimat; 4-cü il 25% mühazirə/seminar/imtahan və 75% axtarış/-təqdimat. Magistraturada bunu davam etmək olar. Ya 50/50 və ya 25/75% nisbətində ola bilər. Doktoranturada isə 20/80 və ya 10/90 etmək olar. Bu, müəllimlərin yükünü azaldar, amma həm müəllimlərin və həm də tələbələrin cavabdehliklərini yüksəldər. Axtarış aparmaq üçün tədqiqat mövzuları ortaya qoyulmalıdır, bu isə müəllimlərin öz sahələrini kifayət qədər yaxşı bilməsini tələb edir. Bu üsul tədbiq edilə bilsə, onda tələbələr sərbəst işləməyi və axtarış etməyi öyrənərlər. Əvvəl-axır, universitetlər biliklərdən başqa sərbəst işləyə bilən və yaradıcı olan mütəxəssislər hazırlamalıdırlar.

Nəzərə almaq lazımdır ki, bu sistemə keçmək üçün müəllimlərin maaşı dərslərdən asılı olmamalıdır. Bunun üçün ümumi maaş quruluşunun islahatı haqda fikirləşmək lazımdır. Maaşlar nə dərslərdən, nə rəhbərlik etdikləri tələbələrin sayından, nə qrantlardan asılı olmalıdır. Amma maaş kifayət qədər olmalıdır ki, onu itirmək istəməsinlər. Buna necə nail olmaq maraqlı mövzudur, ayrı müzakirə tələb edir. Britaniyada əksər universitetlər, dediyim üsulların variasiyalarından istifadə edirlər. Əlbəttə, bu üsulu tətbiq etmək üçün müəllimlərin səviyyəsi kifayət qədər yüksək olmalıdır. Bunu isə ancaq ciddi yoxlamaqla (sertifikasiya kimi bir üsulla) öyrənmək olar. Əgər universitetlərin gəliri tələbələrin səviyyəsinə, hazırlanan mütəxəssislərə və universitetdə olan tədqiqatların keyfiyyətinə görə müəyyən edilsə, onda yaxşı nəticələr almaq olar.

### "Reytinq məqsəd olmamalıdır"

*– Ali təhsil müəssisələrimiz beynəlxalq reytinqlərdə möhkəmlənmək üçün nə kimi addımlar atmalıdır?*

– Gəlin bu məsələyə baxaq: universitetlərin reytinqlərinin məqsədi tələbələri cəlb etməkdir. Orta məktəbdən sonra tələbələr universitetləri onların reytinqlərinə görə seçirlər. Adətən güclü universitetlər reytinq haqda az fikirləşirlər və reytinqi qaldırmaq üçün az maliyyə istifadə edirlər. Orta və aşağı səviyyədə olan universitetlər üçün isə reytinq qürur mənbəyi olur. Bu, əminlik gətirir ki, onlar yaxşı səviyyəli kifayət qədər tələbələri cəlb edə biləcəklər. Bu isə universitetin gəlirini müəyyən edir. Həm də nəzərə almaq lazımdır ki, bir sıra reytinq sxemləri ingilis dilli universitetləri daha yuxarı qiymətləndirirlər. Bu isə Qərbdə olan iş bazarının vəziyyətini ifadə edir. Qısa desək: reytinq dalınca qaçmağın Azərbaycan universitetləri üçün məqsədəuyğun olmadığını fikirləşirəm.

Mənə belə gəlir ki, reytinq əvəzinə universitetdə təhsilin və tədqiqatın keyfiyyətini yuxarı qaldırmaq lazımdır. Onda həm reytinq yuxarı qalxar və həm də maliyyələr çoxalar. Reytinq məqsəd olmamalıdır.

### "Əməkdaşlıq olmadan nadir hallarda yüksək elmi nəticələrə gəlmək olur"

*– Bir neçə gün əvvəl nazir Emin Əmrullayevin doktorant və gənc tədqiqatçıların elmi konfransında məzmunlu çıxışı oldu. Mühüm mesajlardan biri kimi Azərbaycan alimlərinin xarici ölkələrdən olan alimlərlə birgə tədqiqatlar aparması zəruriliyi qeyd olundu. Elmi kollaborasiyaların əhəmiyyətini necə qiymətləndirirsiniz? Bu bizim elmə nə kimi yeniliklər gətirə bilər?*

– Mən cənab nazirlə tamamilə razıyam. Ümumiyyətlə, hazırda beynəlxalq əməkdaşlıq olmadan nadir hallarda yüksək elmi nəticələrə gəlmək olur. Əməkdaşlıq müxtəlif səviyyədə və müxtəlif formalarda ola bilər. Ən sadəsi "bölmə və hökm sür" prinsipi kimi ola bilər. Hər hansı bir elmi iş hissələrə bölünür və ayrı-ayrı hissələrdə işlər müxtəlif laboratoriyalarda görülür. Bunun üçün hər bir laboratoriyanın kifayət qədər gücü olmalıdır. Başqa bir forma belə ola bilər: hər hansı aparıcı laboratoriyanın işində iştirak etmək. Bu halda əsas nəticə aparıcı laboratoriyanındır. Digər iştirakçılar üçün əsas nəticə təcrübə əldə etməkdir. Əməkdaşlıq müzakirə səviyyəsində də ola bilər. Yəqin ki, hazırda, Azərbaycanda infrastruktur yaradılana qədər, aparıcı laboratoriyaların işində iştirak edərək təcrübə qazanmaq kimi əməkdaşlıq etmək olar. Bu, Azərbaycanda elmin inkişafına təkan verə bilər. Amma belə əməkdaşlıq, elmi mühitin yaradılması üçün islahatlar və infrastrukturun təşkili ilə eyni zamanda həyata keçirilsə, gələcəkdə sərbəst işləyə bilən mütəxəssislər və laboratoriyalar yaratmaq olar.

**Oruc MUSTAFAYEV**

# “Ali təhsilin təsirləri: mədəniyyətlərarası öyrənmə və dialoqun əhəmiyyəti”



## MDU Qətərdə Beynəlxalq Universitetlər Assosiasiyasının konfransında təmsil olunub

**Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov Qətərin paytaxtı Doha şəhərində “Ali təhsilin təsirləri: mədəniyyətlərarası öyrənmə və dialoqun əhəmiyyəti” mövzusunda təşkil olunan Beynəlxalq Universitetlər Assosiasiyasının (IAU) konfransında iştirak edib.**

Universitetdən bildirilib ki, Qətər Universitetinin ev sahibliyi etdiyi beynəlxalq konfransa 70-dən çox ölkəni təmsil edən 300-dən artıq universitet rektoru və ali təhsil mütəxəssisi qatılıb.

Konfransın açılış mərasimində Qətər Dövləti Şurasının sədr müavini, Qətər Universitetinin rektoru və IAU-nun prezidenti çıxış ediblər.

Tədbirdə mədəniyyətlərarası səriştələr, qlobal vizyonlu universitetlər, açıq elm, universitet reytinqləri, ali təhsilin beynəlmiləlləşməsi, universitetlərin mədəniyyətlərarası əməkdaşlıqda rolu və digər vacib və maraqlı mövzularda müzakirələr aparılıb.

MDU-nun rektoru Ş.Bayramov konfransın işinə, bölmə iclaslarına və müzakirələrə qatılıb.

Konfrans çərçivəsində rektor, həmçinin Qətər Universiteti də daxil olmaqla, IAU üzvü olan bir neçə universitetin rektorları ilə potensial əməkdaşlıq imkanlarını müzakirə edib.

MDU 2022-ci ildə IAU-nun üzvü olub. 2022-ci ilin 25-28 oktyabr tarixlərində Dublində keçirilmiş IAU-nun konfransında MDU rektoru bu beynəlxalq təşkilatın İdarə Heyətinə üzv seçilib.

# Xəzər dənizi və su hövzələrində boğulma təhlükəsi

## Təhsil müəssisələrində maarifləndirmə tədbirləri davam edir



**Ölkənin ümumi təhsil, orta ixtisas və ilk peşə ixtisas təhsili müəssisələrində Xəzər dənizi və su hövzələrində boğulma təhlükəsinə qarşı silsilə maarifləndirmə tədbirləri keçirilir. Bakı şəhəri və respublikanın bir sıra regionlarını əhatə edən maarifləndirmə kampaniyasının davamı olaraq növbəti tədbir Fövqəladə Hallar Nazirliyinin dəstəyi ilə Beyləqan rayon Dünyamalılar kənd Ə.Şirinov adına 1 nömrəli tam orta məktəbində, İmişli şəhər 5 saylı məktəb-liseyin şagird və müəllim heyəti və Saatlı rayonu Əlisoltanlı kənd tam orta məktəbində Mil-Muğan Regional Təhsil İdarəsinin tabeçiliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin direktorları ilə görüş keçirilib.**

Tədbirdə Elm və Təhsil Nazirliyinin sektor müdiri Qeyrət Şirəliyev, Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin rəisi Vüqar Ağayev, Mil-Muğan Regional Təhsil İdarəsinin əməkdaşları, şagirdlər, müəllimlər iştirak edib.

Tədbirlərin həyata keçirilməsində məqsəd məktəblərdə təhsil alan uşaq və yeniyetmələrin təbii və texnogen xarakterli (suda boğulma, yanğın, dəm qazı və s.) fövqəladə hallarla bağlı maarifləndirilməsi ilə əlaqədar qarşıda duran məsələlər və onların həlli yollarının müzakirəsi, bu istiqamətdə səmərəli işin qurulması üçün metodiki köməkliyin göstərilməsi, belə vəziyyətlər zamanı davranış qaydalarına dair bilik və bacarıqların təkmilləşdirilməsi, bu istiqamətdə maarifləndirmə prosesinin fasiləsizliyinin təmin edilməsindən ibarət olub.

Tədbirlərdə giriş sözü ilə çıxış edən Elm və Təhsil Nazirliyinin sektor müdiri Qeyrət Şirəliyev layihənin əhəmiyyətini vurğulayaraq bu istiqamətdə maarifləndirici görüşlərin keçirilməsinin vacibliyini bildirib. Qeyd edilib ki, təhsilalan və təhsilverənlərin yarana biləcək fövqəladə hallara hazır olması, lazımi davranış qaydalarına dair vərdiş və biliklərə yiyələnməsi vacibdir.

Sonra Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən suda boğulma, yanğın və dəm qazı ilə əlaqədar təhlükəsizlik qaydaları barədə ətraflı məlumat verilib, sözügedən qaydalara riayət edilməsinin vacibliyi vurğulanıb, həmçinin maarifləndirici videoçarxlar nümayiş olunub.

Sonda mövzuya dair videoçarxların müşayiəti ilə interaktiv formada keçirilən tədbirdə suallar ətraflı cavablandırılıb.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4106 **Sifariş** 3169
**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Qax rayon** Zəyəm kənd tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Kamalova (Ərəbova) Kitayə Həmid qızına verilmiş B-154469 nömrəli əsas orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Həsənova (Abuşova) Xavər Suliddin qızına verilmiş 112441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** Texniki Humanitar Liseyi 2009-cu ildə bitirmiş Rüstəmov Əhməd İlham oğluna verilmiş A-620872 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qobustan şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mustafayeva Bahar Elman qızına verilmiş A-368138 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 11 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Əmirov Sarvan Mikayıl oğluna verilmiş A-105865 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2020-ci ildə Abbasov Əlizamin Səməndar oğluna verilmiş C-081318 nömrəli bakalavr diplomu və 2022-ci ildə verilmiş AM-042130 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kolleci** tərəfindən 2023-cü ildə Muradlı Rasif Nəzir oğluna verilmiş AA-193962 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Cəfərli kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Mustafayev Nəsib Yusif oğluna verilmiş E-629817 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2021-ci ildə Qasımova Sevinc Aqil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 239 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Maqsudov Rauf Şahin oğluna verilmiş B-203578 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əhmədov İlqar Yelmar oğluna verilmiş A-180909 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qızılağac kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədov Ramil Ağamməd oğluna verilmiş B-523215 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Abıyev Pərviz Teymur oğluna verilmiş 223849 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Canallı kənd tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Mansurova (Məmmədova) Leyla Vasif qızına verilmiş 997011 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Balakənd kənd ümumi orta məktəbi 2002-ci ildə bitirmiş Əhmədova Gülnar Əlizadə qızına verilmiş B-525201 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İnternat tipli Xarici Dillər Təmayüllü Gimnaziyanı 2011-ci ildə bitirmiş Nəzərəliyev Zabit Azər oğluna verilmiş A-024969 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2022-ci ildə Kazımlı Aytən Elşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Musiqi Texnikumu** tərəfindən 2010-cu ildə Hüseynova Balacaxanım Hüseynbala qızına verilmiş BB-II-103602 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Musayeva Aynurə Malik qızına verilmiş A-291445 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əliyev Ramin Tofiq oğluna verilmiş 062623 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Bığır kənd 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Xəlilova Nərmin Arzu qızına verilmiş B-218821 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2023-cü ildə Həmzəli Fatimə Fuad qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2023-cü ildə Əkbərova Zəhra Kamran qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Elektrik Rabitə Texnikumu** tərəfindən 1980-ci ildə Məhəmmədov İqor Cəlaloviçə verilmiş BT-042675 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Kassar Alsulaiman Mohammad oğluna verilmiş BC-001125 nömrəli bakalavr diplomu və 2010-cu ildə verilmiş MNA-022115 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2006-cı ildə Qəmərli Firuzə Faiq qızına verilmiş BB-I-003762 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 10 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İmamquliyeva Turqanə Adil qızına verilmiş 791819 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 2 nömrəli tam orta məktəb-liseyi 2003-cü ildə bitirmiş Babayeva (Quluzadə) Dürsədəf Hüseynağa qızına verilmiş A-729558 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2005-ci ildə Həsənova Kamilə Kamal qızına verilmiş BB-II-023921 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**287 nömrəli “Zəkalar” Liseyi** 2011-ci ildə bitirmiş Quliyeva Nigar Adil qızına verilmiş A-023329 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 4 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Piriyev Hüseyn Oktay oğluna verilmiş A-445217 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2021-ci ildə Səmədova Aytən Əhliman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Ədilxanova Aidə Nurbala qızına verilmiş 020991 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Hökməli qəsəbə tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Məmmədova Cəmilə Hüseyn qızına verilmiş A-386968 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 110 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Orucova (Xanəliyeva) İlahə Babasoltan qızına verilmiş A-725950 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2003-cü ildə Əliyev Zamin Ramiz oğluna verilmiş A-131969 nömrəli bakalavr diplomu və əlavəsi, 2011-ci ildə verilmiş YB-015189 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədova (Həsənova) Könül Salman qızına verilmiş A-303422 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Köhnə Xaçmaz kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Zeynalov Elşən Elşad oğluna verilmiş E-493904 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Dövlət Texniki Kolleci** tərəfindən 2015-ci ildə İsmayılova Səmimə Oktay qızına verilmiş AA-067745 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2000-ci ildə Şirinova Zülfiyyə Məhəmmədəli qızına verilmiş A-064053 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Abbaslı kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənova Təranə Yasin qızına verilmiş B-075259 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2020-ci ildə Şükürlü Ruslan Qənbər oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2001-ci ildə Səmədov Səməd Vaqif oğluna verilmiş A-083307 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli axşam-qiyabi məktəbi 2007-ci ildə bitirmiş Məlikov Cəlal Elxan oğluna verilmiş B-383180 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2018-ci ildə Muxtarov Cavidan Asif oğluna verilmiş A-150094 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2010-cu ildə Adıgözəlova Rehan Ağasadıq qızına verilmiş BB-II-108042 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2022-ci ildə Əliyeva Rüqayyə Elxan qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Çalxanqala kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Əsədova Səfurə Cəfər qızına verilmiş A-599424 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 8 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Ağazadə Vüqar Əliməmməd oğluna verilmiş A-356497 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Allahverdiyev Niyaməddin Valeh oğluna verilmiş B-016334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası** tərəfindən 2016-cı ildə Orucova (Məmmədova) Gülər Babək qızına verilmiş A-106703 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyi 2016-cı ildə bitirmiş Əliyeva Ülkər Eldar qızına verilmiş A-544361 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2022-ci ildə Qafurlu Səfurə Müşfiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2021-ci ildə Məlikzadə Sənubər Asəf qızına verilmiş C-110889 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2006-cı ildə Qədirov Nəsimi Tofiq oğluna verilmiş B-068563 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2012-ci ildə Əmirova İlkanə Rabil qızına verilmiş MNB-023862 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** M.İsayev adına tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Əfqan Məzahir oğluna verilmiş 664328 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Mirzəzadə Elmir Şahin oğluna verilmiş A-846104 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məmmədova Təhminə Əhəd qızına verilmiş 881870 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Abbaszadə Elnur Elman oğluna verilmiş A-558450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aralıq kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Mehdiyev Nəsimi Maşallah oğluna verilmiş A-393867 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çəmənli kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Hüseynova (Əliyeva) Xanım Babək qızına verilmiş A-435432 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Püsyan kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Əliyev Hüseyn Məhərrəm oğluna verilmiş A-594162 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Əliyeva Firuzə Vahid qızına verilmiş 635432 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədli Həmidə Namiq qızına verilmiş 534312 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 121 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Babayev Fərhad Mehdi oğluna verilmiş B-126507 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bağırova Ülviyyə İlqar qızına verilmiş B-313751 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# Peşə öyrən, işsiz qalma

## Əmək bazarının tələbinə uyğun ixtisaslarda məşğulluq göstəricisi 60 faizdən çoxdur

**İKT, turizm-xidmət, avtomobil diaqnostikası, elektrik qaz qaynaqçısı, bərbər, avtomatika, dərzi, qrafik dizayner, aqroservis mütəxəssisi kimi ixtisaslar artıq uzun müddətdir ki, əmək bazarının dəyişməz tələbatı olaraq qarşımıza çıxır. Bu ixtisaslar həm də gənclərin ən çox yiyələnmək istədikləri ixtisaslardır. Son 3 ildə İKT sahəsi üzrə ixtisaslara - veb dizayner, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma ixtisaslarına böyük maraq müşahidə olunur. Dayə, qrimçi-pastijor, laborantmikrobioloq, moda dizaynı isə qızların ən çox maraq göstərdiyi ixtisaslardır. Builki qəbulda qızlar seçimində kimyəvi analiz laborantı, geyim üzrə dizayner, xalçaçı, karguzar, tədbirlərin təşkilatçısı və qənnadçı, şirniyyatçı ixtisaslarına da seçim üstünlüyü veriblər. Gənclərin subbakalavr dərəcəsi verən yüksək peşə təhsilinə artan marağı isə onların ömürboyu öyrənmə imkanlarından yararlanacaqlarının əsas göstəricisidir.**



### Karyera mərkəzlərində toplanan tələblər peşə təhsilinin təklifinə çevrilir

Bazarla təhsilalanların istəkləri isə həmişə üst-üstə düşmür. Peşə Təhsili üzrə Dövlət Agentliyinin İşəgötürənlərlə iş və İnnovativ layihələr şöbəsinin müdir müavini, müdir səlahiyyətlərini müvəqqəti icra edən Nigar İsmayılzadə - Əsgərovanın fikrincə, tələbatı düzgün müəyyənləşdirmək, əmək bazarının tələbinə uyğun ixtisaslarda və yetərli sayda kadr hazırlığına nail olmaq üçün Agentlikdə planlı iş aparılır. İşəgötürənlərin sifarişləri ilboyu peşə təhsili müəssisələri tərəfindən araşdırılır və həmçinin müxtəlif platformalar üzərində dialoq qurulur. “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən həyata keçirilən tədbirlər çərçivəsində bu istiqamətdə peşə təhsili müəssisələrində yaradılan Karyera mərkəzləri və tələbələr üçün karyera məsləhət xidmətləri təşkil edilib. Tələbələrin əmək bazarına daxil olmasına dəstək verən Karyera mərkəzlərində onlara müxtəlif işaxtarma bacarıqlarına yiyələnmək üçün təlimlər keçilir, əmək yarmarkalarında iştiraklarına dəstək göstərilir. Karyera mərkəzləri həm də işəgötürənlərin kadr tələblərini müəyyənləşdirir, şirkətlərin kadrlarda hansı səriştələr axtardığını araşdırırlar”.

### İşəgötürənlərə kimlər lazımdır?

Nigar İsmayılzadə - Əsgərovanın sözlərinə görə, əmək bazarında təcrübəsi və səriştələri olan kadrlara tələbat yüksəkdir. Ümumiyyətlə götürsək, işəgötürənlər dual təhsil modeli ilə hazırlanan kadrlara üstünlük verirlər: “Sevindirici məqamdır ki, bu qruplardan məzun olan tələbələrimiz artıq tədris ilinin sonuna iş təklifləri alır və əksəriyyəti işlə təmin olunur”.

2022/2023-cü tədris ilində 70-dən çox işəgötürənlə əməkdaşlıq çərçivəsində 700-dən çox tələbə bu təhsil proqramına cəlb edilib. Tələbələrin təxminən yarısı peşə təhsil müəssisəsini bitirər-bitirməz iş təklifi alıb: “Bu tədris ilində isə 12 regionda 48 qrup təşkil edilib. Hazırda 872 tələbə 22 ixtisas üzrə təhsil alır. Dual proqramlarda iş yerində öyrənmə zamanı təhsil alan tələbənin səriştə və bacarıqları, həmçinin xarakterik göstəriciləri ilə işəgötürən daha yaxından tanış olur, onun şirkətə uyğunluğunu və potensialını müəyyən edir. Şirkətin etimad etdiyi işçi tələbə ilə birbaşa işləyir və ona mentorluq edir, öz təcrübəsini və biznes etikasını öyrədir”.

İş yerlərinin tanıdılması, ehtiyac duyulan ixtisaslarla bağlı məlumat əldə etməsi üçün, sadəcə peşə təhsili müəssisələrinin tələbələrinə yox, peşəyönümü tədbirlər çərçivəsində ümumtəhsil müəssisələrinin şagirdlərinə də şərait yaradılır. Şagirdlər üçün ayrı-ayrı ixtisaslarla bağlı ustad dərsləri keçilir, şirkətlərə infoturlar təşkil edilir, onlarla ayrı-ayrı peşə sahibləri görüşərək öz uğur hekayələrini paylaşırlar: “Məsələn, balıqçılıq ixtisasları ilə tanışlıq məqsədi ilə Neftçalada olduq. “Azfish” MMC öz fəaliyyəti, uğurlu kadrları ilə bağlı çox həvəslə məlumatlar paylaşdı. Bitkilər dünyasına isə “LU-MUN Holding”in təşkilatçılığı ilə səyahət təşkil etdik, onlar bitkilərə qulluğun maraqlı məqamlarını öz qonaqları ilə bölüşdü”.

### Kadr hazırlığında işəgötürənlərin rolu

Beləliklə, peşə təhsilində qəbul planı, ilk növbədə, işəgötürənlərin sifarişi əsasında hazırlanır: “İl ərzində şirkətlərin tələbləri toplanır, təhlil olunur və buna uyğun olaraq qəbul planı hazırlanır. Nəqliyyat, emal sənayesi və digər sahələr üzrə işəgötürənlərdən ilboyu sifarişlər gəlir. İşəgötürənin ehtiyaclarına uyğun olaraq qruplar formalaşdırılır, yaxud təlimin müddətinə görə ehtiyac olarsa, yenidən kurikulum hazırlanır, təlimlər təşkil olunur”.

Məsələn, son 6 ildə müasir əmək bazarının tələblərinə uyğun 74 yeni təhsil proqramı hazırlanıb, 500.000-dən çox yeni dərslik çap edilib.

Nigar İsmayılzadə - Əsgərovanın sözlərinə görə, ixtisasartırma və ixtisaslaşma təlimlərinə böyük tələbat yaranıb. Bu tələbatı, o cümlədən ömürboyu öyrənmə amilini nəzərə alaraq yaşlıların da əmək bazarına daxil olmasını təmin etmək üçün Agentlik bu istiqaməti son 3 ildə gücləndirib.

### “Qaynaqçı ixtisası üzrə məzunlarımız iş seçir”

Əmək bazarının tələbinin nəzərə alınması isə peşə təhsili müəssisələrinin məzunlarının işlə təmin olunma faizində özünü göstərib. Bəzi müəssisələrdə məşğulluq göstəricisinin 60 faizdən çox olduğunu deyən N.İsmayılzadə-Əsgərovanın fikrincə, bu nəticə daha çox əmək bazarının tələbinə uyğun ixtisaslardadır: “Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin builki məzunları arasında işsiz qalan olmayıb. Xidmət, turizm sahələrində məşğulluq göstəriciləri çox yüksəkdir. Hazırda işəgötürən şirkətlərdən qaynaqçı ixtisası üzrə çoxlu sifarişlər alırıq.

### Təcrübə keçdiyi restorandan iş təklifi

Əmək bazarının tələbinə uyğun ixtisas seçib hələ təhsilini tamamlamadan iş tapanlardan biri Orxan Əzizovdur.

Turizm və Sosial xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində dual təhsil modeli əsasında aşpazlıq ixtisası üzrə təhsil alan 2001-ci il təvəllüdlü Orxan peşəsinə olan marağın fərqindədir. Amma o, yaxşı aşpazlara böyük tələbat var deyə yox, özü sevdiyi üçün seçib: “2 gün peşə təhsil mərkəzində nəzəri biliklər əldə edirəm, 3 gün isə oteldə təcrübə keçirəm”.



O.Əzizov öz bacarığına güvənir və artıq təcrübə keçdiyi restorandan iş təklifi də alıb: “Aşpaz olmağa qərar vermədən öncə özümu bir çox işdə sınadım”.

Özünü tapdığı işi tapana qədər müharibədə də iştirak edib. Vətən müharibəsi iştirakçısı Orxan Əsgərov dünya xalqlarının yeməklərinə maraq sarıb: “Hərbi xidməti uğurla başa vurduqdan sonra aşpazlıq ixtisası haqqında fikrim qətiləşdi. Elektron qeydiyyatdan keçib bu peşə mərkəzinə qəbul olundum. Məni bu peşəyə bağlayan öz həvəsimlə yanaşı, işin gözəllikləridir. Üstəlik, aşpazlıq bacarığımın olduğunu özüm də hiss edirəm. Hər xalqın fərqli damaq zövqü var və bunu araşdırmaq mənim üçün çox maraqlıdır. Bu marağımı necə təmin edəcəyimi isə təhsil aldığım peşə mərkəzində öyrəndim”.

Aşpaz tələbənin arzusu dünya səviyyəli yarışlara qatılaraq öz ölkəsinin təamlarını dünyaya da nümayiş etdirməkdir.

### Peşə təhsili alıb, işsiz qalmayıb

Peşə təhsilini bir neçə il öncə tamamlayıb işə başlayanların karyera imkanları da peşə təhsili müəssisələrinin əmək bazarındakı yerini təsdiq edir. Məsələn, Xəzər Əzizov hazırda otel meneceri, otel sahibkarının köməkçisidir. Atatürk Universitetinin tələbəsidir. Peşə təhsili müəssisəsindən bir neçə ildir məzun olub. Amma indiyə qədər hələ işsiz qaldığı olmayıb. Hekayəsini dinləyəndə anlayırsan ki, Xəzər dediyi ömürboyu təhsil almağa ehtiyac duyacaq kadrlardandır. Çünki o, yenidən başlamağa, heç bilmədiyi sahədə özünü sınamağa qorxmur. Hələ gənc olmasına baxmayaraq, dəfələrlə sıfırdan başlayıb. Hər başlanğıcı uğurlu olub. Əvvəlcə hərbiçi olmaq istəyib, xüsusi təyinatlı dəstədə xidmət edib. Aldığı xəsarət hərb meydanında sözünü deməsinə mane olanda peşə təhsili almağa qərar verib və bu qərarı bütün həyatını dəyişib- hədəflərini aydınlaşdırıb: “Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində mehmanxana inzibatçısı ixtisasına qəbul olundum. Peşə təhsili həyatımda xüsusi rol oynadı. Burada maraqlı layihələrə qoşularaq müvafiq ixtisas üzrə bilik və bacarıqlar əldə etdim”.

Peşə təhsilinə böyük marağı yaranan X.Əzizov məzun olduqdan sonra müxtəlif sahələrdə işləyib, uğur qazanıb. Amma peşə təhsilində qazandığı bacarıqlar, yaranan həvəs günün birində onu çox uğurla davam edən işini atıb mehmanxana sahəsinə qayıtmağa təhrik edib. Sonuncu iş yeri olan oteldə cəmi bir neçə ay içərisində pillə-pillə qalxıb: “İndiki iş yerimdə müsahibədə məndən soruşdular ki, nə qədər maaş istəyirəm. Cavab verdim ki, əməyimə baxıb vəzifəmi və maaşımı özünüz müəyyənləşdirin. Onlar da bacarığıma, işimə, əməyimə baxıb həm maaşımı, həm vəzifəmi müəyyənləşdirdilər. Üzərimə məsuliyyət götürməkdən qorxmuram. İşimi sevirəm. Peşəmə olan sevgimə görə də təhsil aldığım Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinə, müəllimlərimə borcluyam”.

X.Əzizov peşə təhsili aldığı müəssisə ilə əlaqələrini itirməyib. Mütəmadi müəssisəyə gedir, tələbələrlə görüşür. Onlarla öz təcrübəsini bölüşür, təlimlər keçir. Peşə təhsili mərkəzinin uğurlu məzunlarından biri olaraq öz uğurlarını tələbələrlə də paylaşır.

**Ruhiyyə DAŞSALAHLI**

Prezident təqaüdçüsü



# Arif Hacıyev: “Saatlarla dərs oxumaqdan yorulmurdum”

## “Qarşıda məni böyük sınaqlar gözləyirdi”

**...Elə mən özüm də bu qəbildən olan gənclərlə həmsöhbət olmaqdan zərrəcə yorulmuram. Ali məktəblərə yüksək balla qəbul olunan tələbələrlə görüşdən necə zövq almayasan? Hər birini dinləyərkən sonda gəldiyim nəticə bu olur ki, onların hamısı bu və ya digər formada başqa tələbələrdən fərqlidir; nail olduqları uğurlara aparan yuxusuz gecələri barədə təəssüratlarını dinləyərkən necə də mətin iradə sahibləri ilə həmsöhbət olduğumdan sözün tam mənasında məmnun qalıram. Bu qəbildən olan tələbələrin biri ilə bu günlərdə görüşdüm. Sözünü-söhbətini dinləməkdən doymaqmı olardı?! Həmin tələbə Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin məzunu Arif Hacıyev idi. Hazırda o, Bakı Ali Neft Məktəbinin İnformasiya təhlükəsizliyi fakültəsinin I kurs tələbəsidir. Adını Prezident təqaüdçüləri sırasında görən Arif həmin anda yaşadığı hissləri və ümumiyyətlə, təhsildə qazandığı uğurlar barədə fikirlərini həyəcansız ifadə edə bilmirdi:**

### “Uğurlarımı davam etdirəcəyəm”

- “Liseydə oxuduğum müddətdə bütün fənləri həvəslə öyrənirdim. Olimpiadalara qatılır, müsabiqələrdə iştirak edirdim. Hər uğura imza atdıqca daha da ruhlanır, məsuliyyət hissim daha da artırdı. Peşəkar müəllimlərdən dərs almışam. Qarşıda məni böyük sınaqlar gözlədiyini anlayırdım. Nəhayət ki, 5 mart buraxılış imtahanlarında 300 baldan 296,7 bal toplayaraq respublika birincisi oldum və ümumilikdə isə 678,5 balla Bakı Ali Neft Məktəbinin “İnformasiya təhlükəsizliyi” ixtisasına qəbul olundum. Bakı Ali Neft Məktəbində təhsil almaq mənim üçün çox qürurvericidir. Uğurlarımı davam etdirəcəyimə söz vermişəm. Ən çox kimya və riyaziyyat elmləri ilə məşğul oluram. Bu fənləri orta məktəb illərindən sevirəm”.

### “Biz tələbələr üçün böyük bir məsuliyyətdir”

Prezident təqaüdünə layiq görülməyimi eşidəndə bu xəbər məni çox sevindirdi. Doğrusu, əvvəl inanmadım, çünki mənim üçün bu xəbər gözlənilməz oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident təqaüdü ilə bağlı imzaladığı sərəncamı oxuyarkən 102 tələbənin arasında adımı gördükdə sanki bütün dünyanı mənə bağışladılar. Çünki hər kəs Prezident təqaüdünə layiq görülə bilmir və əgər mən buna layiq görülmüşəmsə, demək daha çox çalışmalı və öz üzərimdə davamlı şəkildə işləməliyəm. Bu, biz tələbələr üçün böyük bir məsuliyyətdir. Ölkə rəhbərinin diqqət və qayğısı daha yaxşı nəticələrə imza atmaq üçün biz tələbələrdə böyük stimul yaradır. Deməliyəm ki, mən aşağı siniflərdə təhsil aldığım illərdə də daim öyrənməyə çalışmışam. Asudə vaxtlarımdan həmişə səmərəli istifadə etmişəm. Saatlarla oturub məsələ - misallar həll etməkdən yorulmurdum. Əksinə, zövq alırdım.

**Sifai SƏFƏROVA**